Azərbaycan Qida Təhlükəsizliyi
İnstitutunun İdarə Heyətinin
___________ tarixli ______№-li
qərarı ilə təsdiq edilmişdir.

**Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu publik hüquqi şəxsin Normativ-texniki sənədlərin ekspertizası şöbəsinin**

# Ə S A S N A M Ə S İ

## 1. Ümumi müddəalar

**1.1.** Bu Əsasnamə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 16 may tarixli 220 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu publik hüquqi şəxsin Nizamnaməsi"nə uyğun olaraq hazırlanmışdır və Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu publik hüquqi şəxsin (bundan sonra – İnstitut) Normativ-texniki sənədlərin ekspertizası şöbəsinin (bundan sonra – şöbə) əsas fəaliyyət istiqamətlərini, vəzifələrini, hüquqlarını, fəaliyyətinin təşkili qaydalarını müəyyən edir;

**1.2.** Şöbə öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"ni, İnstitutun Nizamnaməsini, Azərbaycan Respublikasının digər qanunvericilik aktlarını, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra – Agentlik) Kollegiyasının qərarlarını, Agentliyin sədrinin əmr və sərəncamlarını, Agentliyin sədr müavinlərinin və Aparat rəhbərinin göstərişlərini, İnstitutun İdarə Heyətinin sədrinin əmrlərini və sərəncamlarını, İdarə Heyətinin qərarlarını, İdarə Heyətinin sədr müavinlərinin göstərişlərini və bu Əsasnaməni rəhbər tutur;

**1.3.** Şöbə öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən İnstitutun digər struktur bölmələri, mərkəzi və yerli icra hakimiyyəti, yerli özünüidarəetmə orqanları, beynəlxalq təşkilatlar və qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

## 2. Şöbənin fəaliyyət istiqamətləri

**2.1.** Şöbə aşağıdakı istiqamətlərdə fəaliyyət göstərir:

**2.1.1.** Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınması təklif olunan baytarlıq preparatlarına, yem və yem əlavələrinə (bundan sonra – baytarlıq preparatları), qida məhsullarına, pestisid, aqrokimyəvi maddə və bioloji preparatlara (bundan sonra – pestisid və aqrokimyəvi preparatlar) dair təqdim edilmiş sənədlər toplusunun qanunvericiliyin tələblərinə uyğunluğunu, düzgün tərtibatını və hüquqi qüvvəyə malik olub - olmamasını müəyyənləşdirir;

**2.1.2.** Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınması üçün hər bir baytarlıq preparatına, sınaq nəticələrinə əsasən rəy, istifadə təlimatı hazırlayıb Agentliyin aidiyyəti struktur bölməsinə təsdiq və ya imtina üçün göndərir;

**2.1.3**. qida məhsullarına aid sənədlər toplusunda təqdim edilmiş sənəd və materialların ekspertizasını həyata keçirir və rəy verir;

**2.1.4**. pestisid və aqrokimyəvi preparatların sənədlər toplusunun ekspertizasına dair Ekspert Şurasının iclasına çıxarılması üçün rəy verir;

**2.1.5.** şöbənin fəaliyyəti ilə bağlı aylıq, rüblük, yarımillik, illik və digər işlərə dair hesabatların tərtibatı və təhlilini həyata keçirir, müzakirə üçün rəhbərliyə təqdim edir;

**2.1.6.** qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

## 3. Şöbənin vəzifələri

**3.1.** Şöbənin fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri vardır:

**3.1.1.** baytarlıq preparatlarının, Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınması üçün hər bir məhsula aid təqdim edilmiş sənədlər toplusunun ekspertizasını həyata keçirmək və sənədlər toplusunun qanunvericiliklə müəyyən edilmiş tələblərə uyğunluğunu müəyyən etmək və aparılmış sınaq nəticələrinə əsasən müvafiq rəy vermək;

**3.1.2.** pestisid və aqrokimyəvi preparatlara dair İnstituta daxil olmuş normativ-texniki sənədlər toplusunu ekspertiza edərək, Ekspert Şurasının iclasına çıxarılması üçün rəy hazırlamaq və "Pestisid və qrokimyəvi preparatların dövlət sınağının aparılması, qeydiyyata alınması və istifadəsinə icazə verilmiş preparatların siyahısına daxil edilməsi Qaydaları" və "İstifadəyə yararsız və istifadəsi qadağan olunmuş pestisid və aqrokimyəvi preparatlarının, onların birləşmələrinin və qablarının sahibindən geri alınaraq zərərsizləşdirilməsi və ya məhv edilməsi Qaydaları"na əsasən yaradılmış Ekspert Şurasının və İnventarlaşdırma Komissiyasının iclasında iştirak etmək;

**3.1.3.** Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınması üçün hər bir qida məhsuluna aid təqdim edilmiş sənədlər toplusunun ekspertizadan keçirilərək tələblərə uyğun olub-olmamasını müəyyən etmək və aparılmış sınaq nəticələri əsasında müvafiq rəy vermək, Ekspert şurasının iclsında iştirak etmək;

**3.1.4.** Azərbaycan Respublikasında baytarlıq, pestisid və aqrokimyəvi preparatların və qida məhsullarının dövlət qeydiyyatına alınması və onların ölkəyə idxal edilməsi qaydaları barədə sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxsləri maarifləndirmək məqsədi ilə Agentliyin müvafiq struktur bölməsi ilə birlikdə tədbirlərin həyata keçirilməsində iştirak etmək;

**3.1.5.** baytarlıq preparatları, pestisid və aqrokimyəvi preparatlar, qida məhsulları hazırlanan və onların satışının həyata keçirildiyi ticarət obyektlərində işin gedişatı zamanı standartlara və s. normativ-texniki sənədlərin tələblərinə əməl edilməsi halını Agentliyin müvafiq struktur bölmələri ilə birlikdə araşdırmaq və aşkar edilmiş nöqsanların aradan qaldırılması üçün qanunvericiliyə uyğun tədbirlər görmək;

**3.1.6.** öz fəaliyyətini həyata keçirərkən İnstitutun və Agentliyin digər struktur bölmələri ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərmək.

**3.1.7.** Agentliyin və İnstitutun əmr və qərarları ilə təsdiq edilmiş tədbirlər planları üzrə şöbənin fəaliyyət istiqamətlərinə uyğun olaraq qeyd olunmuş tədbirlərin həyata keçirilməsini təmin etmək, bununla bağlı koordinasiya işlərinin təşkilində iştirak etmək;

**3.1.8.** şöbənin fəaliyyət istiqamətlərinə uyğun olaraq aylıq və illik hesabatların tərtibatı və təhlilini həyata keçirmək, müzakirəsi üçün rəhbərliyə təqdim etmək.

**3.1.9.** fəaliyyət istiqamətlərinə uyğun olaraq şöbəyə tapşırılmış digər vəzifələri yerinə yetirmək;

**3.1.10.** baytarlıq, pestisid və aqrokimyəvi preparatlara və qida məhsullarına dair elmi konfransların, seminarların, sərgilərin işində iştirak etmək;

**3.1.11.** fəaliyyət istiqamətlərinə müvafiq olaraq Agentlikdən İnstituta daxil olmuş müraciətlərə və təkliflərə qanunla müəyyən edilmiş qaydada və müddətdə baxaraq münasibət bildirmək;

**3.1.12.** şöbənin əməkdaşları tərəfindən fəaliyyət prosesində qanunvericiliyə uyğun olaraq xidməti məlumatların, dövlət və kommersiya sirrinin qorunmasını təmin etmək;

**3.1.13.** şöbənin fəaliyyət istiqamətinə uyğun olaraq qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri, o cümlədən, İnstitutun İdarə Heyətinin sədrinin əmri və göstərişləri ilə şöbəyə həvalə olunan digər tapşırıqları yerinə yetirmək.

## 4. Şöbənin hüquqları

**4.1.** Şöbə öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

**4.1.1.** baytarlıq, pestisid və aqrokimyəvi preparatların və qida məhsullarının qeydiyyata alınması üçün təqdim edilən sənədlər qanunvericiliyin tələbləri ilə uyğunsuzluq təşkil etdiyi təqdirdə preparatın və məhsulun qeydiyyata alınmasının məqsədəuyğun olmadığı barədə rəy vermək;

**4.1.2.** baytarlıq, pestisid və aqrokimyəvi preparatların və qida məhsullarının yenidən qeydiyyata alınması ilə bağlı sənədlərin ekspertizası zamanı preparatın və məhsulun adı, tərkibi, fiziki-kimyəvi xüsusiyyətləri, hazırlanma texnologiyası, qablaşdırılması, nişanlanması, dozalaşdırılması və istifadə qaydasında dəyişikliklər olduğu təqdirdə bu barədə yazılı məlumatın təqdim olunmasını sifarişçidən tələb etmək. Təqdim edilmiş sənədlərdə qeyri-dürüst məlumatlar aşkar edildiyi halda həmin sənədləri qəbul etməmək;

**4.1.3.** baytarlıq, pestisid və aqrokimyəvi preparatların və qida məhsullarının qeydə alınması barədə müraciət məktubuna əlavə edilmiş sənədlər toplusunda ciddi çatışmazlıq və uyğunsuzluq olduqda çatışmazlığın aradan qaldırılmasını tələb etmək;

**4.1.4.** qeyd olunmuş uyğunsuzluq aradan qaldırılmadığı təqdirdə, həmçinin, sənədlər ekspertizadan keçirilərkən təhrif olunmuş məlumat aşkar edilərsə, həmin sənədlərə imtina rəyi vermək;

**4.1.5.** İnstitutda və digər dövlət qurumlarında yaradılmış komissiyalarda, işçi qruplarında, fəaliyyətinə aid məsələlər üzrə keçirilən müxtəlif səviyyəli yerli və beynəlxalq tədbirlərdə iştirak etmək.

**4.1.6.** şöbənin fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində qabaqcıl xarici ölkələrin təcrübəsinin öyrənilməsi və onların tətbiqi üçün müstəqil ekspertləri və mütəxəssisləri öz fəaliyyətinə cəlb etmək və və bu barədə İnstitutun rəhbərliyinə təkliflər vermək;

**4.1.7.** şöbəyə həvalə edilmiş vəzifələrin icrası zamanı aşkar olunan nöqsanların qarşısının alınması məqsədilə treninqlərin keçirilməsi üçün təkliflər vermək;

**4.1.8.** fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

## 5. Şöbənin fəaliyyətinin təşkili

**5.1.** Şöbəyə İnstitutun İdarə Heyətinin sədri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən şəxs (bundan sonra – şöbə müdiri) rəhbərlik edir. Şöbə müdiri şöbəyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır;

**5.2.** Şöbənin əməkdaşları İnstitutun İdarə Heyətinin sədri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir.

**5.3.** Şöbə müdiri:

**5.3.1.** Şöbənin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

**5.3.2.** tabeliyində olan sektor və əməkdaşlar arasında iş bölgüsü aparır və onların fəaliyyətini əlaqələndirir, əmək, icra və etik davranış qaydalarına riayət etmələrinə nəzarət edir;

**5.3.3.** şöbəyə həvalə olunmuş vəzifələrin icrasını təmin etmək məqsədilə tərtib edilmiş iş planlarını və digər bu kimi sənədləri imzalayır, habelə iş planında nəzərdə tutulmuş tədbirlərin vaxtında və keyfiyyətlə həyata keçirilməsinə nəzarət edir;

**5.3.4.** şöbə əməkdaşları barəsində həvəsləndirmə və intizam tənbehi tədbirlərin görülməsi üçün institutun rəhbərliyinə təqdimatlar verir;

**5.3.5.** şöbənin vəzifələrini yerinə yetirmək üçün İnstitutun digər strukturlarından sənədlər və məlumatları alır;

**5.3.6.** şöbəni təmsil edir.

**5.4.** Şöbə 3 sektordan ibarətdir:

**5.4.1.** Baytarlıq preparatları üzrə normativ-texniki sənədlərin ekspertizası sektoru;

**5.4.2.** Pestisid və aqrokimyəvi preparatların normativ-texniki sənədlərinin ekspertizası sektoru;

**5.4.3.** Qida məhsullarının normativ-texniki sənədlərinin ekspertizası sektoru.

**5.5.** Şöbə əməkdaşları bu Əsasnamənin tələblərinin pozulmasına görə Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən məsuliyyət daşıyırlar.